İnsanların eləsi də var ki,
Allahın razılığını qazanmaq
üçün canını da verər.
(Bəqərə, 2/207)

# ALLAH NƏDƏN RAZI QALIR

| | |
|---|---|
| **Kitabın adı:** | **Allah nədən razı qalır** |
| **Toplayan:** | **Səid Ələkbərov** |
| **Redaktə edən:** | **Xumar Ərşadlı** |
| **Tarix:** | **04. 01. 2022** |

# Giriş

*Bismilləhir-Rahmənir-Rahim*

*Şübhəsiz ki, həmd Allaha məxsusdur. Biz Ona həmd edir və Ondan kömək diləyirik. Nəfslərimizdə olan şərlərdən və pis əməllərdən Allaha sığınırıq. Allahın doğru yola yönəltdiyini azdıran, azdırdığını da doğru yola yönəldən ola bilməz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir və Onun heç bir şəriki yoxdur. Şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və elçisidir.*

Uca Allahın razılığını qazanmaq hər bir müsəlman üçün önəmlidir və buna görə də hər bir müsəlman buna səy göstərməlidir.

Bu mövzu mühüm bir məsələ - xeyir əməllərə müvəffəq olmaq üçün bir-birimizlə

köməkləşməyin vacibliyi barədə qələmə alınmışdır.

Mövzu qısa olsa da əhəmiyyətlidir, çünki insanı əməl etməyə təşviq edir. Buxarinin (Allah ona rəhmət etsin) rəvayət etdiyi bir hədisdə belə buyurulur: **“Peyğəmbərin ﷺ əxlaqı Quran idi”[1].**

Müsəlmanın əxlaqının yüksək olması onun xeyir əməllərə yönəlməsinə və Allahın razılığını qazanmasına bir səbəbdir.

Qurani-Kərimin ayələri şəkil üzərinə köçürülmüş mücərrəd yazılar deyildir və öz-özlüyündə toxunulmaz olmamalıdır. Belə bir misalı nəzərdən keçirək: məsələn, əkin-biçin mövzusu haqqında danışmaq önəmlidir, lakin əkini biçib-becərmədikcə bu barədə danışmaq faydasızdır. Eləcə də, din mövzusu haqqında danışmaq da

---

[1] Buxari, “Ədəbul-Mufrad”, 308

önəmlidir. Lakin dində bizə vacib buyurulan əməlləri icra etmədikcə, bu haqda danışmaq faydasızdır.

Müsəlman Allahın buyurduğunu və dində buyurulan əməlləri həyatında yaşadıqca, artıq Qurani-Kərimin ayələrini həyatında icra etmiş olur.

Allah Təala bizə möminlər haqqında belə xəbər verir:

أَوَمَن كَانَ مَيْتًا فَأَحْيَيْنَٰهُ وَجَعَلْنَا لَهُۥ نُورًا يَمْشِى بِهِۦ فِى ٱلنَّاسِ كَمَن مَّثَلُهُۥ فِى ٱلظُّلُمَٰتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا

***"Ölü ikən diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi?"*** [2]

---

[2] "Ənam", 122

Təfsir alimlərindən olan Qurtubi və İbn Kəsir (Allah hər ikisinə rəhmət etsin) buyururlar: “Bu ayə ümumi olaraq hər bir möminə aiddir. Beləliklə, biz həyatımıza İslam işığının və Quran nurunun saçmasına, eləcə də bu nuru insanlar arasında yaymağa həris olmalıyıq”.

Uca Allah bizi məxluqa yox, Rəbbinə ibadət edən qullarından etsin və dünyanın darlığından genişliyinə çıxarsın. Müvəffəqiyyət yalnız Allahdandır, təvəkkül və tövbə də yalnız Allahadır.

# Din nədir?

Allah-Təala buyurur:

ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِى وَرَضِيتُ لَكُمُ ٱلْإِسْلَٰمَ دِينًا ۚ

***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim”*[3].**

Dinin mümkün qədər qısa izahı:

1-Din, Peyğəmbərin ﷺ və əshabının (Allah onlardan razı olsun) Allaha ibadət etməkdə Onu təkləşdirməsi, insanlara Allahı tanıtmaqla Ona ibadət etməyə və Onu ibadətdə təkləşdirməyə çağırması, onları Allah Azzə və Cəlləyə yönəltməsidir.

---

[3] “Maidə”, 3

2- Peyğəmbərin üzərində olduğu hər bir əməl bizim və bütün insanların hidayətinə səbəbdir. Peyğəmbərin yolunu tutmaq doğru yol üzərində olmağa ən böyük səbəbdir. Necə ki, Allah Təala buyurur:

وَإِن تُطِيعُوهُ تَهۡتَدُواْۚ

***“Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız”*[4].**

3- Peyğəmbər ﷺ bizi iki məsələ ilə məsul edib:

Birinci: Peyğəmbər ﷺ buyurur: **“Sizin hər biriniz himayəçidir. Sizin hər biriniz öz himayəsində olanlardan məsuldur”**[5].

İkinci: Peyğəmbər buyurur: **“Məndən bir ayə olsa belə təbliğ edin”**[6].

---

[4] “Nur”, 54
[5] Buxari, 893
[6] Buxari, 3461

Başqa bir rəvayətdə isə o, belə buyurur: **“Allah sizə mərhəmət etsin, mənim haqqımda təbliğ edin”**[7].

Himayədarlıq, məsuliyyət hesab olunur. İnsanların dini və dünyəvi məsələlərdə ehtiyacını qarşılayan kəs himayəçi olaraq məsuliyyət daşıyır. İnsanları dinə dəvət etmək, onlara İslamı çatdırmaq da bir məsuliyyətdir. Hər iki məsələ - himayəsində olan insanların həyati ehtiyaclarını qarşılamaq və dini insanlara çatdırmaq məsuliyyəti - Allah yolunda ibadətdir.

Lakin özünü aldadaraq malına və ailəsinə daha çox vaxt ayırıb, insanlara dini çatdırmağa az vaxt ayırması müsəlmana yaraşmaz. Dünyəvi məsələlərlə daha çox məşğul olduqda, bu halı şeytan, onun üçün bəzəyər.

---

[7] ət-Təbərani, “Mucəmul-Kəbir”, 25/233

Allah-Təala buyurur:

شَغَلَتْنَآ أَمْوَٰلُنَا وَأَهْلُونَا

***“Mallarımız və ailələrimiz bizi yayındırdı”*[8].**

İnsanın mal-dövləti və əhli-əyalı onu məşğul edərək Allahın dinindən yayındırarsa, bu hal onun üçün təhlükəli və həlakedicidir. Allah qorusun. İnsanı nə mal-dövləti, nə də digər məsələlər dindən yayındırıb uzaq salmamalıdır.

4- Həyatımızda dinin mükəmməlliyi, nemətlərin yetərliliyi, dünya və Axirətdə gözəl həyat da kifayət dərəcədədir.

Allah Təala buyurur:

مَنْ عَمِلَ صَٰلِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَوٰةً طَيِّبَةً ۖ

[8] “Fəth”, 11

***“Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcəyik”***[9].

İnsana göndərilən dini qəbul edib xeyir əməllər edən hər kəsə Uca Allah həm bu dünyada, həm də Axirətdə xoşbəxt həyat nəsib edir. Bu dünya həyatında insanlara verilən nemətlər yetərincədir.

5- Peyğəmbərin ﷺ din haqqındakı bəyanına səy göstərmək.

Peyğəmbər ﷺ buyurur: **“Din nəsihətdir”**[10].

Din gözəl bir öyüd-nəsihətdir. Həmçinin, başqaları ilə gözəl müamilədir.

Hədisdə Peyğəmbərimiz buyurur: **“Həcc Ərafadır”**[11].

---

[9] “Nəhl”, 97
[10] Müslim, 55
[11] Əbu Davud, 1949. Tirmizi, 2975. Nəsəi, 3044

Bununla biz Həccdə Ərafa dağında dayanmağın əhəmiyyətini asanlıqla dərk edirik.

Eyni zamanda **“Din nəsihətdir”** deyildikdə, biz həyatımızda nəsihətin əhəmiyyətini asanlıqla dərk etmiş oluruq.

Təbii ki, qulun dininin qədəri onun həyatındakı nəsihətin varlığı qədərdir. Eyni zamanda qulun gözəl davranışlarının qədəri də, onun Allah üçün sevgisinin və Allah üçün qəzəbinin nə qədər ixlaslı olması qədərdir.

6-Peyğəmbərin ﷺ və onun əshabının üzərində olduqları yolda sabit olmaq.

Hər bir mömin Peyğəmbərin ﷺ və onun əshabının yolu üzərində olmağa bütün varlığı ilə can atmalıdır.

Allah-Təala buyurur:

أَوَمَن كَانَ مَيْتًا فَأَحْيَيْنَٰهُ وَجَعَلْنَا لَهُۥ نُورًا يَمْشِى بِهِۦ فِى ٱلنَّاسِ كَمَن مَّثَلُهُۥ فِى ٱلظُّلُمَٰتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا ۚ

***“Məgər ölü ikən diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi?”***[12].

Bu ayədə “gəzmək” deyildikdə, Peyğəmbərin və onun əshabının olduğu yol üzərində davamiyyətli olmaq nəzərdə tutulur.

Din Peyğəmbərin ﷺ və əshabının yolu üzərində olmaqdan ibarətdir. Çünki dinin əsas göstəricisi olan Peyğəmbər və əshabı davamiyyətli və əzmkar olaraq bu yol üzərində olmuşlar.

---

[12] “Ənam”, 122

# Qadınların din əmanətini yerinə yetirməsi

Qadınların dinin buyurduğu əmanəti yerinə yetirməkdə sadiqlik göstərərək öz məhrəmlərinə yardım etmələri Allah yolunda cihada bərabərdir. Peyğəmbər ﷺ buyurub: **“Qadınlarla qarşılaşan kəs məndən çatdırsın ki, həyat yoldaşına itaət etmək və onun haqqını etiraf etmək onun üçün Allah yolunda cihada bərabərdir”[13].**

İslam dinində qadının öz həyat yoldaşına qarşı sədaqətli olmasına olduqca böyük önəm verilir.

[13] Abdullah bin Abbas (Allah ondan razı olsun) ət-Təbərani, “Mucəmul-kəbir”, isnadı zəifdir.

# Din həyatımızda necə bərqərar olur?

Din insanın cəhd göstərməsi və ona can atması ilə mümkün olur. Allah Təala buyurur:

وَمَن جَٰهَدَ فَإِنَّمَا يُجَٰهِدُ لِنَفْسِهِۦٓۚ إِنَّ ٱللَّهَ لَغَنِيٌّ عَنِ ٱلْعَٰلَمِينَ

***“Cihad edən məhz öz xeyri naminə cihad edər. Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur”***[14].

Təfsir alimi Abdurrahmən əs-Sədi (Allah ona rəhmət etsin) bu ayənin təfsirində belə demişdir: “Yəni, kim nəfsi ilə, şeytanla və düşməni olan kafirlə mübarizə apararsa”.

İnsanın nəfsi istəkləri, şəhvətləri və şeytanla mübarizə aparması eyni zamanda dinə qarşı olan inkarçıların şübhələrinə önəm verməyərək, Allahın dininə yönələrək səy göstərməsi məhz öz xeyri

---

[14] “Ənkəbut”, 6

üçündür. Uca Allahın bəşəriyyətə heç bir ehtiyacı yoxdur.

Allah Rəsulu ﷺ bir hədisində belə buyurur: **“Bu ümmətin birinci islahı yəqinlik və zahidlikdir. Onların birinci fəsadı isə paxıllıq və ümidlərlə yaşamaqdır”**[15]. Tibiyyu bu hədisin izahında demişdir ki, “Kim Allahın ruzi verməsindən əmin olarsa, dünyada zahid olar, uzun ümidlərə qapılmaz və eyni zamanda paxıl olmaz”.

Din Peyğəmbərin ﷺ və onun səhabələrinin yoludur. Alimlər bu yolda öz səylərini tam ortaya qoymuşlar.

---

[15] Abdullah bin Amr (Allah ondan razı olsun). Beyhəqi, “Şuəbul-iman” (10844). Şeyx əl-Albani “Mişkət əl-Məsabih”-də (5210) hədisin isnadına “həsən” demişdir.

## İnsanların həyatında dinin mövcud olmasının səbəbləri:

1. Dua etməyə rəğbət bəsləmək və doğru yola səy göstərmək.

Qüdsi hədisdə Allah Azzə və Cəllə buyurur: **“Ey qullarım! Mənim hidayət etdiyim istisna, hamınız zəlalətdəsiniz. Məndən hidayət diləyin ki, sizi hidayətə müvəffəq edim”**[16].

Hər bir insan Allaha dua edib doğru yolda olmağa səy göstərərsə, Allah onu doğru yola yönəldər. Çünki insan bir şeyi səmimiyyətlə istəyərsə, Allah ona bunu müvəffəq edər.

2. Saleh insanlara və onlarla yoldaşlıq etməyə rəğbət bəsləmək.

---

[16] Müslim, 2577

Peyğəmbər ﷺ buyurur: **“Kişi, dostunun dini üzərindədir”**[17]. Bununla bərabər, bütün insanlara şərait yaratmaq və onları saleh bir mühitlə təmin etmək bu ümmətin üzərinə haqdır.

İnsan saleh əməl sahibləri ilə və saleh əmələ təşviq edən kəslərlə yoldaşlıq etməyə səy göstərməlidir.

Peyğəmbər ﷺ Allah Təalaya tövbə etmək istəyən bir kişi haqqında belə xəbər vermişdir: **“Filan yerə get. Orada Allaha ibadət edən insanlar vardır. Sən də onlarla birlikdə Allaha ibadət et”**[18].

3. Daim Allahın nemətlərini xatırlamaq.

Allah Təala bizi yalnız Özünə ibadət etmək üçün yaratmışdır. Bu ayələrə diqqət yetirməliyik - Allah Təala buyurur:

---

[17] Əbu Davud, 4833. Tirmizi, 2378. Şeyx əl-Albani “həsən” demişdir.
[18] Buxari, 3470. Müslim, 2766.

يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱذْكُرُوا۟ نِعْمَتَ ٱللَّهِ عَلَيْكُمْ ۚ هَلْ مِنْ خَٰلِقٍ غَيْرُ ٱللَّهِ يَرْزُقُكُم مِّنَ ٱلسَّمَآءِ وَٱلْأَرْضِ

***"Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı?"*[19].**

Başqa bir ayədə isə Allah Təala buyurur:

وَذَكِّرْ فَإِنَّ ٱلذِّكْرَىٰ تَنفَعُ ٱلْمُؤْمِنِينَ

***"Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir"*[20].**

وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

***"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"*[21].**

---

[19] "Fatir", 3
[20] "Tur", 55
[21] "Zariyət", 55-56

İnsan daim Allahın nemətlərini yada salmalı və Allahdan başqa heç bir yaradıcının olmadığına yəqinliklə iman gətirməlidir.

4. Allah Təalanın kövni ayətlərinə[22] və Quran ayələrinə yönəlmək. Necə ki, Allah Təala buyurur:

قُلِ ٱنظُرُوا۟ مَاذَا فِى ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ ۚ

***De: "Görün, göylərdə və yerdə nələr var"[23].***

Başqa bir ayədə isə Allah Təala buyurur:

سَنُرِيهِمْ ءَايَٰتِنَا فِى ٱلْءَافَاقِ وَفِىٓ أَنفُسِهِمْ حَتَّىٰ يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ ٱلْحَقُّ ۗ

***"Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik"[24].***

---

[22] Allah Təalanın kainatdakı bütün nişanələri.
[23] "Yunus", 101
[24] "Fussilət", 53

İnsan Uca Allahın kainatda yaratdığı bütün əlamətlərə baxıb təfəkkür etməli, həmçinin Allahın kəlamını oxuyub ibrət almalıdır. Göydə və yerdə olanların hamısı Allahın nişanələridir.

5. Yaxşı işlərə səy göstərməyə təşviq etmək, Cənnəti, onun nemətlərini qazanmağı sevdirmək və Cəhənnəm əzabıyla qorxudaraq pis əməllərdən çəkindirmək.

Səhih Müslimdə gələn hədis də buna işarədir: Səhabə Hanzələ (Allah ondan razı olsun) deyir ki, Allah Rəsulu ﷺ **“Bizə Cənnəti və Cəhənnəmi xatırladırdı. Hətta biz onu gözlə görmüş kimi olurduq”**[25].

Müsəlman həmişə xeyir işlər etməyə çalışmalı və insanları da xeyir əməllərə sövq etməlidir.

---

[25] Müslim, “Tövbə Kitabı”, 2750

6. İnsanları Uca və tək olan Allaha yönəltmək.

Necə ki, bu haqda bəzi rəvayətlərdə nəql edilmişdir. “Qureyşlilər Əbu Talibin yanına gələrək ona belə dedilər: “Ey Əbu Talib! Qardaşın oğlu gəlib Kəbəmizdə dəvət edir”[26].

İnsanları tək olan Allaha yönəldib dəvət etmək, insanlara dini öyrədərək maarifləndirmək, insanların həyatında dinin mövcud olmasının səbəblərindəndir.

---

[26] Təbərani, “Mucəmul-Əvsat” 8/252. Buxari, “Tarixul-Kəbir” 7/50,51.

# Dəvətdə düzgün tövsiyyə vasitələri

1. İstisnasız olaraq bütün insanların dinə olan ehtiyacıları, havaya olan ehtiyaclarından daha

çoxdur. Lakin din haqqında insanların başa düşəcəyi tərzdə və gözəl bir şəkildə danışılmalıdır. Bu haqda Əli ibn Əbu Talib (Allah ondan razı olsun) demişdir:

**“İnsanların başa düşəcəyi tərzdə danışın. Siz Allah və Onun Rəsulunun təkzib olunmasını istəyərsinizmi?”[27].**

Eləcə də Allah Təala əmr edir:

ٱدۡعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِٱلۡحِكۡمَةِ وَٱلۡمَوۡعِظَةِ ٱلۡحَسَنَةِۖ

***“İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et”***[28].

---

[27] Buxari, 127
[28] “Nəhl”, 125

Hikmət - xitab edilənin qəlbinə münasib üslubla yol tapmaqdır. Kim Allahdan kömək diləyərsə, Allah ona kömək edər.

İnsanlara edilən nəsihət düzgün, hikmətli, eyni zamanda onların anlayacağı və gözəl tərzdə olmalıdır. İnsalara dini çatdırarkən onlarda dinə qarşı ikrah oyanmasına yol verilməməli, din sevdirilərək, asanlaşdırılaraq izah edilməlidir.

2. Allaha dua etməyi və zikr etməyi insanlara öyrətmək.

Allaha dua və zikr etmək, həm xüsusi həm də ümumi şəkildə olur. Mühüm olan odur ki, insanlara dini məsələləri öyrədib çatdırarkən yalnız Peyğəmbərin ﷺ yoluna üz tutmalıyıq. Bu haqda Peyğəmbərimiz ﷺ bizə xəbər verərək buyurur: **“Mənim adımdan təbliğ edin”**[29]. Yəni, dini öz

[29] Buxari, 3461

ağlınıza uyğun təbliğ etməyin. Çünki Peyğəmbərin Allaha etdiyi zikr və dualar artıq ona Rəbbi tərəfindən açıq-aydın nazil olmuşdur və bu məsələdə müsəlmanların ixtilaf etməsinə gərək yoxdur.

Dində olan hər hansı bir məsələni, duaları, zikrləri və ibadətləri düzgün şəkildə insanlara çatdırmaq lazımdır. Allahın Elçisi ﷺ dini bizə necə çatdırıbsa, insanları da o şəkildə maarifləndirmək lazımdır.

3. Dini məsələlərdən hər hansı birini icra etmək şəri vasitələrdən hesab olunur.

Misal üçün, kiməsə Qurani-Kərim öyrətmək. Bu, məscid, mədrəsə, radio və ya sosial şəbəkələr vasitəsilə ola bilər. Bu məsələdə Peyğəmbərin ﷺ hədisinə müvafiq olmaq lazımdır. Peyğəmbər ﷺ

buyurur: **“İkiniz də düz oxuyursunuz, ixtilaf etməyin”**[30].

Dini məsələləri insanlara çatdırarkən düzgün vasitələrdən istifadə olunmalı, həmçinin insanlar təşvişə salınaraq ixtilaflara yönəldilməməlidir.

4. Allahın əzəmətini və qüdrətini çatdırmaq, fəzilətli əməllərlə Cənnətə rəğbətləndirmək, Cəhənnəmdən və asiliklərdən çəkindirmək, ixlaslı olmağa səbəbdir. Bu, hər bir müsəlmandan ən az tələb olunan əməldir.

Daim Allahın ucalığını və əzəmətini, həmçinin böyük qüdrət sahibi və kainatda hər şeyi idarə edən olduğunu çatdırmaq lazımdır. İnsanlara xeyir əməlləri tövsiyyə etmək, onları günahlardan çəkindirmək hər bir müsəlman üçün olduqca önəmlidir.

---

[30] Buxari, 2410

5. İnsanlara Allahın dinini sevdirərək, dinə yaxınlaşdıraraq onları gözəl bir tərzdə dəvət etməliyik.

İnsanları Allahın dininə Allahdan kömək diləyərək, insanlarla mülayim rəftar edərək çağırmaq lazımdır. Allah Təala buyurur:

فَبِمَا رَحْمَةٍ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمْ ۖ

**“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin”**[31].

Bizim, insanları dinə dəvət etməyə və onları Allaha yaxınlaşdırmağa çox ehtiyacımız var. İnsanlarda dinə qarşı ikrah oyatmamalı və onları Allahdan uzaqlaşdırmamalıyıq. Peyğəmbərimizin ﷺ bir hədisində nəql olunur ki, o, belə buyurmuşdur:

[31] “Ali-İmran”, 159

**“İnsanları dəvət edin, müjdələyin, nifrət etdirməyin, asanlaşdırın, çətinləşdirməyin”**[32].

6. Elm vermək və çatdırmaq (dinlətmək). İnsanlara elmi hikmətlə, sevgiylə və dinə rəğbətləndirməklə çatdırmaq lazımdır. Bu isə əsasən Allahdan kömək diləməklə olur.

İnsanlara dini düzgün şəkildə, xurafatlardan təmiz halda çatdırmaq lazımdır. Onlara elmi sevdirərək öyrətmək və dini elmə həvəsləndirmək lazımdır.

7. İnsanlara haqqı tövsiyyə etmək nə elmi dərəcə qazanmaq, nə var-dövlət, nə nüfuz, nə də şan-şöhrət əldə etmək üçün olmamalıdır. Əks halda bu, dinə qarşı hörmətsizlik ola bilər. Allah qorusun.

Allah Təala buyurur:

---

[32] Şeyx əl-Albani, “Səhih əl-Cəmi”, 246. Hədis səhihdir.

قُل لَّآ أَسۡـَٔلُكُمۡ عَلَيۡهِ أَجۡرًاۖ

***De: “Mən bunun (təbliğin) əvəzinə sizdən heç bir mükafat istəmirəm”***[33].

İnsanlara haqqı təbliğ etmək şan-şöhrət əldə etmək üçün olmamalıdır. Haqq, Allahın razılığını qazanmaq üçün təbliğ edilməlidir. İxlaslı olan kəslərin mükafatını Uca Allah həm bu dünyada, həm də Axirətdə verəcək.

8. Müsəlmana gördüyü yaxşı yuxu ilə də müjdə olunur.

İnsanın imanı və təqvası çox olarsa, onun gördüyü yuxular da bir çox halda çin çıxar.

Allah Elçisi ﷺ əshabından tez-tez soruşardı: **“Sizdən biri yuxu gördümü?”**[34]

---

[33] “Ənam”, 90
[34] Buxari, 7047

Ubədə ibn Samit (Allah ondan razı olsun) deyir ki, Allah Rəsulundan ﷺ

لَهُمُ ٱلْبُشْرَىٰ فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا

***“Dünya həyatında da onlara müjdə vardır”*[35]** ayəsi haqqında soruşdum. Peyğəmbər dedi: **“O müjdə, möminin gördüyü və ya ona görünən yaxşı yuxudur”[36].**

Saleh yuxular müsəlman üçün müjdə ola bilər. Bir müsəlmanın gördüyü saleh yuxular onun xeyir əməllərə olan əzmkarlığını gücləndirir. Lakin həmin yuxular şəri hökmlər üçün dəlil götürülmür.

9. Bütün nəsihətlər sevgi ilə və Allah Təalanın rizasını qazanmaq üçün edilməlidir.

---

[35] “Yunus”, 64

[36] Tirmizi, 2275. Şeyx əl-Albani “səhih” demişdir. Əhməd, 27510

Peyğəmbər ﷺ buyurmuşdur: **“İman etmədikcə Cənnətə daxil olmazsınız, bir-birinizi sevmədikcə də iman etmiş olmazsınız”**[37].

Münaqişələr insanlar arasındakı məhəbbəti yox edir. Dəvət zamanı bir müsəlman digər müsəlmanları alçaltmamalı, əksinə onlara qarşı mülayim olmalıdır. Allah Təala buyurur:

أَذِلَّةٍ عَلَى ٱلْمُؤْمِنِينَ

***“Möminlərə qarşı mülayim...”***[38].

İnsanlara elm öyrədən kəs həm öz yoldaşlarına, həm də böyüklərə qarşı hikmətli davranmalı, dəvət və söhbət zamanı ədəbli kəlmələrdən istifadə etməlidir. Hər bir müsəlman daim öz nəfsini ədəblə tərbiyələndirməlidir. Uca Allahın bəşəriyyətə bir rəhmət olaraq göndərdiyi Muhəmməd Peyğəmbəri

---

[37] Müslim, 54
[38] “Maidə”, 54

ﷺ özünə örnək götürməli, onun əxlaqı ilə əxlaqlanmalıdır.

10. Rəbbinin razılığını qazanmaq üçün dəvət edən insanlarla oturub-duran kəslər bədbəxt olmaz.

Buxaridə gələn bir hədisdə deyilir: **“(Allah buyurur) Onlar elə insanlardır ki, onlarla oturub-duran bədbəxt olmaz”**[39].

İnsanın əməlisaleh insanlarla oturması yalnız onun öz xeyrinədir. Xeyir əməl sahibləri insanları düz yola çağırar və haqqa yönəldər, eləcə də dünyada və Axirətdə onların bədbəxtlikdən qurtulmasına səbəb olarlar. Dünyada və Axirətdə xoşbəxtlik məhz haqq olan tövsiyyələrə əməl etməklə olur.

---

[39] Buxari, 6408. Müslim, 2689

Allahın salavatı və salamı Peyğəmbərin ﷺ, onun ailəsinin, əshabının və onların ardınca gözəl şəkildə gedənlərin üzərinə olsun.

# Mündəricat

**Giriş** ........................................................... 1

**Din nədir?** ........................................................ 5

**Qadınların din əmanətini yerinə yetirməsi** .... 12

**Din həyatımızda necə bərqərar olur?** ............ 13

**İnsanların həyatında dinin mövcud olmasının səbəbləri:** ................................................... 15

**Dəvətdə düzgün tövsiyyə vasitələri** ................ 21